*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* *ISSN: 2664-5432*
*Səhifə: 102-106*
https://doi.org/10.59849/2664-5432.2025.2.102

**Zülfiyyə MUSAVİ***

# ONTOLİNQVİSTİKANIN FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## XÜLASƏ

Məqalədə ontolinqvistikanın psixolinqvistika, psixologiya və neyrolinqvistikanın kəsişməsində yaranmış müstəqil elmi fənn kimi formalaşması və inkişaf mərhələləri araşdırılır. Qeyd olunur ki, nitq insanın idraki, emosional və sosial həyatında mərkəzi rol oynayır və onun mexanizmlərinin öyrənilməsi multidissiplinar tədqiqat istiqamətinə çevrilmişdir. Müəllif psixolinqvistika və ontolinqvistika arasındakı əlaqə və fərqləri vurğulayır. Əgər psixolinqvistika nitq fəaliyyətinin ümumi mexanizmlərini öyrənirsə, ontolinqvistika uşağın ana dilini mənimsəmə prosesini və fərdi nitq sisteminin formalaşmasını tədqiq edir.

Əsərdə ontolinqvistikanın formalaşma mərhələləri – L.S.Vıqotski, A.R.Luriya və A.N.Qvozdevin tədqiqatlarından başlayaraq, erkən ikidillilik (ontobilinqvizm) də daxil olmaqla müasir istiqamətlərə qədər – təhlil olunur. Xüsusi diqqət nitqin idraki və psixofizioloji aspektlərinə, eləcə də uşağın dil sisteminin formalaşmasında sosial mühitin roluna yönəldilir. Ontolinqvistika dilin mənimsənilməsi, idraki inkişaf və ikidilliliyin emosional və intellektual inkişafa təsiri arasındakı qarşılıqlı əlaqəni öyrənən multidissiplinar sahə kimi müəyyən edilir.

Nitq insanın idrak, emosional və sosial həyatında mühüm yer tutur. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də düşüncənin formalaşmasında, özünü ifadə etməkdə və fikirin ötürülməsində əsas rol oynayır. Müasir dövrdə insan nitqinin öyrənilməsi problemi psixolinqvistika, sosiolinqvistika, psixologiya, neyrofiziologiya, pedaqogika və loqopediya elmlərinin kəsişməsində duran kompleks tədqiqat sahəsinə çevrilmişdir. Bu istiqamətin əsasını psixolinqvistika təşkil edir.

Psixolinqvistika insanın nitq fəaliyyətini, onun yaranması, qavranılması və istehsalı mexanizmlərini psixoloji və linqvistik kontekstində tədqiq edən elmdir. Onun əsas məqsədi nitqin formalaşmasında beyin mexanizmlərinin, yaddaşın, diqqətin və qavrayışın qarşılıqlı əlaqəsini öyrənməkdir. Bu elmin mühüm istiqamətlərindən biri uşaqlarda nitqin yaranması və inkişafı – nitqin ontogenezi məsələsidir. Bu istiqamət sonralar ontolinqvistika adlanan müstəqil elmi sahəyə çevrilmişdir. Ontolinqvistika uşağın ana dilini necə mənimsədiyini, fərdi nitq sisteminin formalaşmasını və bu prosesin idrak mexanizmləri ilə qarşılıqlı təsirini araşdırır.

***Açar sözlər:*** ontolinqvistika, psixolinqvistika, uşaq nitqi, nitq fəaliyyəti, qavrama

---

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Sosiolinqvistika və psixolinqvistika şöbəsi, aparıcı elmi işçi, filologiya üzrə fəlsəfə doktoru. Email: zulya_student@mail.ru

Psixolinqvistika dilin psixi proseslərə bağlılığını öyrənən, nitqin struktur və mənşə problemlərini izah edən çoxdisiplinar elm sahəsidir. Bu sahə müstəqil elm sahəsi olmaqla yanaşı, gündəlik həyatımızın hər sahəsində, hətta həyatımızın hər anında bizi müşayiyət edir. Bu elm insan psixologiyasinin, eyni zamanda insan təfəkürünün, nitqinin inkişafı ilə bağlı məsələləri özündə əks etdirir

Psixolinqvistika dilçiliyin sistem təhlilini psixologiyanın eksperimental üsulları ilə birləşdirir. Ontolinqvistika isə psixolinqvistikanın bir istiqaməti kimi formalaşaraq uşağın ana dilini mənimsəmə prosesini və fərdi nitqin inkişafını öyrənir. O, uşağın ilk ünsiyyət cəhdlərindən başlayaraq dili ünsiyyət və düşüncə vasitəsi kimi tam mənimsəyənədək olan mərhələləri araşdırır. Ontolinqvistika nitq qabiliyyətinin necə formalaşdığını, fərdi dilin necə inkişaf etdiyini və bu dildə yaşla bağlı hansı dəyişikliklərin baş verdiyini tədqiq edir.

Ontolinqvistika uşağın nitqini sadəcə "böyüklər dilinin natamam forması" kimi deyil, müstəqil və dinamik dil sistemi kimi dəyərləndirir. Bu sistem uşağın idrak səviyyəsini, sosial mühitlə əlaqəsini və təfəkkür tərzini əks etdirir. Psixolinqvistika daha çox ümumi mexanizmləri araşdırdığı halda, ontolinqvistika fərdi inkişaf yoluna və dilin tədricən mənimsənilməsinə diqqət yönəldir.

Ontolinqvistika XX əsrin əvvəllərində Rusiyada meydana gəlmişdir. Onun elmi əsaslarının formalaşmasında L.S.Vıqotski, A.R.Luriya və A.N.Qvozdev mühüm rol oynamışlar.

Vıqotski dilin sosial təbiətini əsaslandıraraq göstərirdi ki, uşağın nitqi əvvəlcə sosial xarakter daşıyır, sonradan isə fərdi təfəkkürün daxili forması halına gəlir [Выготский: 1982, s.37]. Bu ideya "daxili nitq" konsepsiyası kimi elmi dövriyyəyə daxil olmuşdur.

A.N.Qvozdev öz oğlunun nitq inkişafı üzərində apardığı sistemli müşahidələr əsasında uşaqlarda fonetik, morfoloji və sintaktik ardıcıllığın qanunauyğunluqlarını müəyyən etmişdir [Гвоздев: 1961, s.98]. Onun tədqiqatları uşaq nitqinin struktur dəyişkənliyini və formalaşma mərhələlərini aydın göstərmişdir.

Bu dövrdə K.Çukovski "*İkidən beşə*" adlı əsərində uşaq nitqinin poetik və yaradıcı xüsusiyyətlərini göstərmiş, bu fenomeni ciddi elmi müşahidə predmeti kimi təqdim etmişdir [Chukovsky: 1963, s. 119].

1960–1970-ci illərdə psixolinqvistika müstəqil elm kimi formalaşdıqdan sonra ontolinqvistik tədqiqatlar yeni mərhələyə qədəm qoydu. Qərbdə R.Brown, D.Slobin, E.Clark, M.Braine kimi tədqiqatçılar rus elmi məktəbinin nailiyyətlərinə istinad edərək universal dil mənimsənilməsi mexanizmlərini izah etdilər [Slobin:1973; Clark: 1993].

*Ontolinqvistikanın tədqiqat istiqamətləri və metodologiyası*

Ontolinqvistik tədqiqatlarda məqsəd uşağın dili hansı mərhələlərlə mənimsədiyini, bu prosesdə hansı idrak mexanizmlərin iştirak etdiyini müəyyənləşdirməkdir.

Əsas tədqiqat istiqamətləri bunlardır:

1. Müəyyən bir uşağın ana dilini mənimsəmə prosesinin öyrənilməsi (case study);
2. Müxtəlif uşaqlar tərəfindən eyni dilin mənimsənilməsinin ümumi qanunauyğunluqları;
3. Müxtəlif dillərin uşaqlar tərəfindən mənimsənilməsində universal prinsiplər.

Ontolinqvistika “case study” metodundan geniş istifadə edir. Burada bir uşağın nitq inkişafı mərhələli şəkildə izlənilir, hər bir yeni dil vahidinin yaranması və transformasiyası qeyd olunur. Sonrakı mərhələlərdə bu məlumatlar digər uşaqlardan toplanan materiallarla müqayisə edilir, beləliklə ümumi dil qanunları müəyyənləşdirilir.

Müasir mərhələdə ontolinqvistika informasiya texnologiyalarının imkanlarından da yararlanır — səs tanıma, avtomatik mətn təhlili və neyropsixoloji müşahidə metodları tədqiqatların empirik bazasını genişləndirir.

*Uşaq nitqinin struktur və semantik xüsusiyyətləri*

Ontolinqvistika sübut edir ki, uşaq nitqi böyüklərin dilinin primitiv forması deyil, müstəqil semantik sistemdir. Uşağın dili onun idrak inkişafını, qavrayış çevikliyini və konseptual dünyagörüşünü əks etdirir.

Məsələn, ham -ham sözü uşaq üçün bütün dörd əyaqlı heyvanlar aləmini ifadə edə bilər, “qarr-qarr” isə təkcə quşları deyil, uçan istənilən obyektləri – yarpaq, balon və s. Bu fakt dilin semantik elastikliyinin və uşaq idrakının fərqliliyinin göstəricisidir.

Uşaqlar dilin qrammatik sistemini də təbii qaydada, müəyyən ardıcıllıqla mənimsəyirlər. Ümumi qaydalar (məsələn, şəkilçi sistemi) istisnalardan əvvəl öyrənilir, bu isə dil iyerarxiyasının idrak səviyyəsində formalaşdığını göstərir. Beləliklə, dilin sistemlə norması arasındakı fərqlər uşağın nitqində aydın görünür [Jakobson: 1968].

Nitqin psixolinqvistik  və koqnitiv aspektləri aspektləri əlaqəsi

Psixolinqvistik baxımdan uşağın nitqinin formalaşması onun koqnitiv inkişafı ilə sıx bağlıdır.

J. Piaje göstərirdi ki, uşaq əvvəlcə eqosentrik nitq mərhələsindən keçir, yalnız sosial təzyiq və təcrübə nəticəsində “başqaları üçün nitq” mərhələsinə yüksəlir [Piaget: 1959]. Əksinə, Lev Vıqotski hesab edirdi ki, nitq əvvəlcə sosialdır və sonradan daxilləşərək “daxili nitq” forması alır [Выготский: 1982]. Onun fikrincə, uşağın dil inkişafı sosial qarşılıqlı təsirdən başlayaraq fərdi şüur səviyyəsində başa çatır. Roman Yakobsonun tədqiqatları göstərmişdir ki, dil səsləri və fonemlər müəyyən iyerarxik ardıcıllıqla mənimsənilir. Dilin patoloji pozulmalarında bu ardıcıllıq əks istiqamətdə pozulur [Jakobson: 1968]. Uşaqların nitq öyrənmə strategiyalarını T.Zubkova (1993), A.Gregoire, D.Slobin (1973) kimi alimlər araşdırmış və müəyyən etmişlər ki, morfoloji və sintaktik sistemin mənimsənilməsi müxtəlif idrak tipinə malik uşaqlarda fərqli templərlə gedir.

*Erkən ikidillilik və ontobilinqvologiya*

Müasir dövrdə ontolinqvistikanın ən aktual istiqamətlərindən biri erkən uşaqlıq ikidilliliyidir. İkidillilik (biliqvizm) uşağın eyni vaxtda iki dili mənimsəməsi fenomenidir. Bu problem "ontobilinqvologiya" adlı yeni tədqiqat sahəsini formalaşdırmışdır [Chirsheva, 2018].

Ontobilinqvologiya uşaq nitqi və ikidillilik problemlərinin kəsişməsini öyrənir. Bu sahədə U. Weinreich (1953), Bellugi, Clark, Şahnaroviç, Zeitlin kimi alimlərin əsərləri mühüm əhəmiyyət kəsb edir.

Erkən ikidilli uşaqlarda dillərarası interferensiya, kod dəyişməsi və semantik paralellər müşahidə olunur. Bununla yanaşı, belə uşaqların idrak çevikliyi, yaddaş və sosial adaptasiya qabiliyyəti daha yüksək olur.

Ontolinqvistika uşağın nitqinin formalaşması, fərdi dil sisteminin inkişafı və idrakla qarşılıqlı əlaqəsini öyrənən çoxdisiplinar elmdir. O, psixolinqvistikanın tərkib hissəsi kimi dilin psixoloji, sosial və neyrobioloji əsaslarını kompleks şəkildə araşdırır. Bu elmin əsas vəzifələri uşağın dil mənimsənilməsinin universal qanunauyğunluqlarını müəyyənləşdirmək, erkən ikidilliliyin idrak və emosional inkişafa təsirini tədqiq etmək, həmçinin uşağın fərdi nitq sisteminin sosial mühitlə əlaqəsini araşdırmaqdır.

Ontolinqvistikanın gələcək inkişaf istiqamətləri nitqin neyrolinqvistik modellərinin qurulması, kompüter analizi və erkən yaş dövrlərində nitq pozuntularının diaqnostikası ilə bağlıdır. Bu sahə təkcə dilçilər üçün deyil, həm də psixoloqlar, pedaqoqlar, loqopedlər və nitq terapevtləri üçün əvəzsiz nəzəri və praktik əhəmiyyət daşıyır.

**ƏDƏBİYYAT:**


1. Chirsheva, G. N. (2018). *Ontolinguistics: Theoretical and Applied Aspects*.
2. Chukovsky, K. (1963). *From Two to Five*.
3. Jakobson, R. (1968). *Child Language, Aphasia, and Phonological Universals*.
4. Piaget, J. (1959). *The Language and Thought of the Child*.
5. Выготский, Л. С. (1982). *Мышление и речь.*
6. Пиаже, Ж. (1959). *Речь и мышление ребёнка.*
7. Лурия, А. Р. (1979). *Язык и сознание.*
8. Гвоздев, А. Н. (1961). *Формирование у ребёнка грамматического строя русского языка.* Москва: АПН РСФСР.
9. Слобин, Д. И. (1973). *Когнитивные предпосылки развития грамматики.*


## FORMATION AND DEVELOPMENT STAGES OF ONTOLINGUISTICS

## SUMMARY


The article examines the formation and developmental stages of **ontolinguistics** as an independent scientific discipline that emerged at the intersection of **psycholinguistics**, **psychology**, and **neurolinguistics**. It emphasizes that speech plays a central role in human cognitive, emotional, and social life, and the study of its mechanisms has become an interdisciplinary endeavor.

The author highlights the relationship and distinctions between psycholinguistics and ontolinguistics. While psycholinguistics focuses on general mechanisms of speech activity, ontolinguistics explores the individual process of how a child acquires their native language and develops a personal speech system.

The paper analyzes the main stages of ontolinguistics' development — from the works of **L. S. Vygotsky**, **A. R. Luria**, and **A. N. Gvozdev** to modern research directions, including **early bilingualism (ontobilingualism)**. Special attention is given to cognitive and psychophysiological aspects of speech development and the role of the social environment in shaping the child's linguistic system.

Ontolinguistics is defined as a multidisciplinary field that studies the interrelation between language acquisition, cognitive development, and the influence of bilingualism on emotional and intellectual growth.

**Keywords:** *ontolinguistics, psycholinguistics, child speech, speech activity, perception*

## ФОРМИРОВАНИЕ И ЭТАПЫ РАЗВИТИЯ ОНТОЛИНГВИСТИКИ

В статье рассматриваются формирование и этапы развития онтолингвистики как самостоятельной научной дисциплины, возникшей на пересечении психолингвистики, психологии и нейролингвистики. Подчеркивается, что речь играет центральную роль в когнитивной, эмоциональной и социальной жизни человека, а изучение её механизмов стало междисциплинарным направлением.

Автор акцентирует внимание на взаимосвязи и различиях между психолингвистикой и онтолингвистикой. Если психолингвистика изучает общие механизмы речевой деятельности, то онтолингвистика исследует индивидуальный процесс усвоения ребёнком родного языка и формирования личной речевой системы.

В работе анализируются основные этапы становления онтолингвистики — от трудов Л.С.Выготского, А.Р.Лурии и А.Н.Гвоздева до современных направлений исследований, включая ранний билингвизм (онтобилингвизм). Особое внимание уделяется когнитивным и психофизиологическим аспектам речевого развития, а также роли социальной среды в формировании языковой системы ребёнка.

Онтолингвистика определяется как междисциплинарная область, изучающая взаимосвязь между усвоением языка, когнитивным развитием и влиянием билингвизма на эмоциональный и интеллектуальный рост.

**Ключевые слова:** онтолингвистика, психолингвистика, детская речь, речевая деятельность, восприятие